Azərbaycan Texniki Universitetinin "Energetika və avtomatika" fakültəsinin
Elmi Şurasının 28 aprel 2023-cü il tarixli iclasının 8 saylı protokolundan

ÇIXARIŞ

İştirak etdi: 22 nəfər
İştirak etmədi: 2 nəfər

Bakı şəhəri

5.2. Müxtəlif məsələlər: "Elektrotexnika" kafedrasının əməkdaşları dos. S.N.Musayeva, ass. S.A.Kazbekova və ass. H.V.Fəttayev tərəfindən hazırlanmış "Elektrik dövrələri nəzəriyyəsi fənnindən laboratoriya işləri" adlı dərs vəsaitinin müzakirəsi.

Dinlənildi: "Energetika və avtomatika" fakültəsinin Elmi Şurasının sədri, dosent H.B.Quliyev iclas iştirakçılarını "Elektrotexnika" kafedrasının 28 noyabr 2022-ci il tarixli iclasının 3 saylı protokolundan çıxarışla tanış edərək bildirdi ki, kafedra əməkdaşları – dos. Musayeva Sevinc Nadir qızı, ass.Kasbekova Sevda Ağaməd qızı və ass. Fəttayev Hikmət Varid oğlu tərəfindən hazırlanmış "Elektrik dövrələri nəzəriyyəsi fənnindən laboratoriya işləri" adlı dərs vəsaitini Elmi Şuraya müzakirə məqsədi ilə təqdim etmişlər. O, adı çəkilən dərs vəsaitinə müsbət rəylərin verildiyini, kafedra iclasının protokolundan çıxarışın və "Energetika və avtomatika" fakültəsi üzrə Metodiki Komissiyanın qərarının təqdim edildiyini qeyd etdi və dərs vəsaitinin çap olunmasının müzakirə edilməsini təklif etdi.

Çıxış etdilər: Müzakirədə çıxış edənlər və Elmi Şuranın üzvləri dərs vəsaitinin "Elektrotexnika" kafedrasında bakalavr pilləsində tədris olunan "Elektrik dövrələri nəzəriyyəsi" fənnini keçən tələbələrin laboratoriya dərsləri üçün nəzərdə tutulduğunu, tələbələrə vacib material olmasını qeyd etdilər və dərs vəsaitinin çap olunmasını tövsiyə etdilər.

Qərara alındı: "Elektrotexnika" kafedrasının əməkdaşları dos. S.N.Musayeva, ass. S.A.Kazbekova və ass. H.V.Fəttayev tərəfindən hazırlanmış "Elektrik dövrələri nəzəriyyəsi fənnindən laboratoriya işləri" adlı dərs vəsaitinin qrif ilə nəşr olunması tövsiyə olunsun.

"Energetika və avtomatika" fakültəsinin
Elmi Şurasının sədri, dosent H. B. Quliyev

Elmi Şuranın katibi, baş müəllim A. Y. Qasımov

CamScanner ile tarandı